**_Məhyəddin_**
**_MƏHƏRRƏMOĞLU_**

## *Düşüncələr*

Dünya bir çaxçaxsız, susuz dəyirman,
Yaranan hər şeyi külə döndərir.
Yaxşı insanları yaşadır zaman,
Yenidən bitirib gülə döndərir.

Həyatı dərk edib duymayan insan,
Sanmayın dar gündə imdada yetər.
Haram əməllərdən yapışar hər an,
Qəbrinin üstündə qanqallar bitər.

Vicdan meyarıdı insana hörmət,
İnsanlıq haqqını pul-var ödəmir.
Ruha qanad verir halal bir zəhmət,
Vicdansız bir ürək pas tutmuş dəmir...

Dünyaya beş günlük dünya deməyək,
Çünki dünya hər vaxt axarındadı.
Nəsillər getdikcə nəsil gələcək,
Əbədi qalacaq insanlıq adı.

Dünyanın şərəfi biz insanlarıq,
Allaha məxsusdur işi hər anın.
Neçə ki dünya var, biz orda varıq,
Dünya bizimkidir, biz də dünyanın.

## *Laçın qayası*

Başı ərşə çatan Murov dağının
Əziz balasıdı "Laçın qayası".
Doğma Kəlbəcərin məğrur dayanan
Qeyrət qalasıdı, "Laçın qayası".

O, bir yaraşıqdı dərəyə-düzə,
Baxdıqca zövq verir ürəyə, gözə.
Əzəldən vurğunuq bir-birimizə
Ana laylasıdı "Laçın qayası".

Əynində boz rəngdə daş əbası var,
Ona sığal çəkir yağan yağışlar.
Döşündə yurd salıb havalı quşlar,
Laçın yuvasıdı "Laçın qayası".

Əzəldən vurğundu ona Məhyəddin,
Nəhs günlər keçirib bəlkə də min-min.
Üzbəüz dayanan doğma kəndimin
Nurlu aynasıdı, "Laçın qayası".

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 21 may.- S. 32.**